**Hüquq və idarəetmə**
**Law and Management**
**Право и управление**

**AUDİT 2024, 4 (46), səh. 144-151.**
**AUDIT 2024, 4 (46), pp. 144-151.**
**АУДИТ 2024, 4 (46), стр. 144-151.**

**DOI: 10.59610/bbu4.2024.4.14**

*Gülmalıyeva Nigar Ağabala qızı,*
*doktorant,*
*Azərbaycan Kooperasiya Universiteti,*
*E-mail: nigar.gulmaliyeva@gmail.com*
*© Gülmalıyeva N.A., 2024*

**UOT: 330.322;334**
**JEL: L51, K23**

# BİZNESİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN AKTUAL MƏSƏLƏLƏRİ

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi -** müasir biznesin aktual problemlərinin həllində tənzimləmə sisteminin rolunun artırılması imkanlarının dəyərləndirilməsidir.

**Tədqiqatın metodologiyası** - tədqiqat prosesində müşahidə, müqayisəli təhlil, sintez, elmi abstraksiya və ümumiləşdirmə üsullarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** - əsaslandırılmış elmi-nəzəri müddəalar və əldə olunmuş nəticələr biznesin dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi üzrə tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi prosesində istifadə oluna bilər.

**Tədqiqatın nəticələri** - dövlət tənzimlənməsi sisteminin biznes mühitinin müasir problemlərinin daha səmərəli həlli üçün təkmilləşdirilməsi imkanları səciyyələndirilmiş, onların reallaşdırılması istiqamətləri müəyyən olunmuşdur.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** - biznes mühitinin və biznesin müasir problemlərinin həlli baxımından dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsinin imkanları dəyərləndirilmiş, onların reallaşdırılması istiqamətləri müəyyən olunmuşdur.

**Açar sözlər:** biznes, dövlət tənzimlənməsi, biznes mühiti, investisiya, imkanlar, klaster

## G İ R İ Ş

Biznes mühiti, ilkin yanaşmada işgüzar fəaliyyət üçün biznes subyektləri və digər tərəfmüqabillərlə, habelə rəqiblərlə iqtisadi və institusional münasibətlərin məcmusu kimi qəbul edilə bilər. Həmin məcmuda marketinqin məqsədi alıcı tapmaq, onun ehtiyaclarını öyrənmək və ödəməklə gəlir əldə etməkdir. Sosial öhdəliklərin yerinə yetirilməsində biznes-dövlət, biznes-yaxın ərazi və ətraf mühit münasibətləri önə çıxır. Dövlət milli biznesin inkişafında maraqlıdır və həmin maraqlar iqtisadi siyasət prioritetlərinə uyğun olaraq reallaşdırılır. Bu prosesdə başlıca rol tənzimləmə sisteminə məxsusdur. Mövcud vəziyyətin araşdırılması biznesin dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsinə ehtiyac olduğunu göstərir. Odur ki, müasir biznesin problemlərinin həllində dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi imkanları və istiqamətlərinin müəyyən edilməsi gündəlikdə durur.

**AUDİT 2024, 4 (46), səh. 144-151.**
**AUDIT 2024, 4 (46), pp. 144-151.**
**АУДИТ 2024, 4 (46), стр. 144-151.**

**Biznesin və biznes mühitinin aktual problemlərinin həllində tənzimləmə sisteminin rolu**

Biznes fəaliyyət kimi geniş diapazonlu olmaqla onun inkişafının tənzimlənməsi mövcud arsenalın bütün əsas elementlərindən istifadəni nəzərdə tutur. Dövlət biznesi tənzimləməklə, ilk növbədə milli iqtisadiyyatın dinamik və dayanıqlı inkişafını, yerli biznes subyektlərinin beynəlxalq əmək bölgüsündə genişlənən iştirakını təmin etmək məqsədini qarşıya qoyur. Bu məqsədlə dövlət strukturları iqtisadi potensialdan və onun reallaşdırılması imkanlarından çıxış edərək tənzimləmənin bütün sınanmış və innovativ üsul və vasitələrdən istifadə etməyə çalışır.

Biznesin aktual problemləri, həlledici dərəcədə onun tənzimlənməsininin aktual problemlərini şərtləndirir. Müvafiq mənbələrdə müasir biznesin aktual məsələləri qismində aşağıdakılar qeyd olunur:

- müştəri cəlb etməyin problemləri [1];
- dəstək proqramlarının gözlənilən səmərəliliyinin heç də həmişə əldə edilməməsi” [2];
- biznes üçün vəsait tapılması və gəlirlərin etibarlığı [3] və s.

Yuxarıda sadalanan problemlərin həlli üçün tənzimləyici tədbirlər aşağıdakı istiqamətdə fəallaşdırılmalıdır: bazar araşdırmalarına dəstək, dəstək proqramlarının icrasının monitorinqinin təkmilləşdirilməsi, investisiya cəlbediciliyinin artırılmasının innovativ üsullarının sınaqdan keçirilməsinin təşviqi və s.

Biznesin tənzimlənməsi üsullarının onların biznesin aktual problemlərini həlli imkanların dəyərləndirmək üçün mövcud təsnifat əlamətləri nəzərə alınmalıdır. Həmin üsulları, əlbəttə müəyyən şərtiliklərlə birbaşa və dolayı kimi fərqləndirmək olar. Birbaşa üsullar müəyyən dərəcədə inzibati xarakterlidir. Onlara biznes fəaliyyətinə “dövlət nəzarəti, biznesin dövlət qeydiyyatı, vergitutma, müəyyən biznes növlərinin lisenziyalaşdırılması” [4] aid edilir. Birbaşa tənzimləmə üsullarından və vasitələrindən fərqli olaraq dolayı üsullar biznesin daxili motivasiyasını gücləndirməyə yönəlmişdir. Həmin üsul və vasitələrin tətbiqi stimullaşdırıcı təsiri, bir qayda olaraq əlverişli işgüzar şərait yaradılmasına xidmət edir. Biznesin tənzimlənməsinin dolayı üsullarına proqnozlaşdırma və planlaşdırma, vergi, gömrük və kredit güzəştlərinin təqdim olunması, dövət sifarişlərinin verilməsi aid olunur.

Milli iqtisadiyyatın inkişafında dövlətin tənzimləyici rolu, ilk növbədə onun iqtisadi siyasətinin prioritetləri ilə şərtlənir. Hazırda həmin prioritetlər qismində dayanıqlıq və innovativliyə xüsusi önəm verilir. Həmin siyasətin həyata keçirilməsi zamanı, daha çox iqtisadi proseslərə dolayı və birbaşa təsir formaları arasında birgə istifadə üzrə manevr etmək lazım gəlir.

Biznesin dövlət tərəfindən tənzimlənməsinin üsul və vasitələri işgüzar fəallığı dəstəkləmək baxımından bir-biri ilə vəhdət təşkil etməlidir. Həmin alətlər qismində, ilk növbədə vergilər, rüsumlar, subsidiyalar, dotasiyalar, subvensiyalar, dövlət investisiyaları, satınalmaları və sifarişləri, məqsədli proqramlar (davamlı layihələr), təsərrüfat qanunvericiliyi və əlbəttə Mərkəzi Bankın alətləri qeyd olunmalıdır. Sadalanan alətlərin demək olar ki, hamısı biznesin tənzimlənməsində istifadə edilir.

Müasir biznesin problemlərini həll etmək baxımından biznesin tənzimlənməsinin birbaşa və dolayı üsullarının vəhdətinin təmin edilməsi üçün onlar mütərəqqi inkişaf tələblərinə uyğunlaşdırılmalıdır. Aşağıdakı mənbədə göstərildiyi kimi “istənilən dövlətdə “biznesin səmərəli inkişafının mühüm şərti həmin fəaliyyətin dövlət tənzimlənməsinin vergi və inzibati

AUDİT 2024, 4 (46), səh. 144-151.
AUDIT 2024, 4 (46), pp. 144-151.
АУДИТ 2024, 4 (46), стр. 144-151.

sistemində edilən dəyişikliklərin mütərəqqi xarakterli olmasıdır” [5].

Ölkənin 2022-2026-cı illər ərzində sosial-iqtisadi inkişaf strategiyasında göstərildiyi kimi yaxın perspektivdə biznesə “dövlət dəstəyi mexanizmlərinin effektivliyi, ünvanlılığı və şəffaflığı gücləndiriləcək, uğurlu dövlətlərin müsbət təcrübələri əsasında biznes startaplarının və inkubatorlarının, ixracyönümlü istehsal və xidmətlər üzrə mütərəqqi biznes layihələrinin dəstəklənməsi mexanizmləri təkmilləşdiriləcəkdir” [6].

Artıq qeyd olunduğu kimi dövlət biznesin inkişafına çoxtərəfli təsir imkanlarına malikdir. Bu prosesdə dövlət həm təşviq edici, həm də tərəfdaş olmaq iqtidarındadır. Biznesin dövlət himayəsinin səmərəliliyinin yüksəldilməsinin perspektiv istiqaməti kimi əhalinin tələbatının daha detallı və operativ surətdə nəzərə alınması, bu məqsədlə insanların həmin prosesdə fəal iştirakının təşviqi və yerli özünüidarəetmə strukturlarının müvafiq səlahiyyətinin artırılması hesab olunur. Digər və daha böyük strateji əhəmiyyətə malik istiqamət dövlət və biznesin iştirak etdiyi bazar seqmentində rəqabət mühitinin dəstəklənməsidir.

Müxtəlif ölkələrdə, daxili mühit yaradan amillər, habelə xarici təsirlər səbəbindən dövlətin biznes münasibətlərini tənzimləyən normativ-hüquqi aktlar sistemində özünəməxsusluq labüddür. Odur ki, “biznesin formalaşması və inkişafı dövründə dövlətin icra etdiyi funksiyalar fərqlənir. Biznesin formalaşması dövründə dövlətin funksiyalarına aşağıdakılar aid edilir:

- innovasiyalı, şəffaf, elmi əsaslandırılmış, zəruri kadr təminatına malik biznes mühitinin yaradılması;
- rəqabət mühitinin yaradılması, səmərəli antiinhisar siyasətinin işlək mexanizminin, yerli biznesin səmərəli himayəsi sisteminin yaradılması, xarici biznes üçün bazar olması;
- yüksək keyfiyyətli məhsul və xidmətlərin innovasiyalı əsasda təklifinin dayanıqlı artımı, ölkədaxili regionlarda biznesin səmərəli ixtisaslaşması;
- elmtutumlu, innovasiyalı məhsullara tələbin stimullaşdırılması, həmin məhsullara dövlət sifarişi sisteminin işlənib hazırlanması;
- biznesin təşkilati və bazar infrastrukturunun yaradılması, mikro və kiçik biznes subyektlərinə dəstək və fəaliyyətin şaxələndirilməsi baxımından infrastruktur şəbəkəsinin təkmilləşdirilməsi;
- biznesin sosial yönümünün dəstəklənməsi.

Sonuncu funksiyanın icrası zamanı biznes layihələr aşağıdakı meyarlar üzrə dəyərləndirilə bilər: “sosial missiya, sahibkar yanaşması, innovativlik (sosial problemin həllində yenilik, resursların yeni birləşməsi, region üçün yeni xidmət), tirajlama qabiliyyəti, özxərciniödəmə və maliyyə dayanıqlığı” [7].

Milli biznesin dövlət tərəfindən tənzimlənməsi tədbirlərinin səmərəliliyində və həmin tədbirlərin inkişaf sistemi əmələ gətirməsində normativ- hüquqi bazanın aparıcı rolu şübhəsizdir. Bu istiqamətdə Azərbaycanda atılan addımlar əsaslandırılmış və gələcəyə hesablanmış olmaqla yanaşı, gözlənildiyi kimi nəticə yönümlüdür. Biznes münasibətlərinin tənzimlənməsi baxımından biznes subyektlərinə dövlət dəstəyinin və işgüzar fəallığın təşviqinin üsul və vasitələrini müəyyənləşdirən "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikasının Qanunu [8] xüsusi vurğulanmalıdır. Hüquqi bazanın möhkəmləndirilməsi

**AUDİT 2024, 4 (46), səh. 144-151.**
**AUDIT 2024, 4 (46), pp. 144-151.**
**АУДИТ 2024, 4 (46), стр. 144-151.**

baxımından Azərbaycanda dövlət və biznes tərəfdaşlığının iqtisadi, təşkilati və əlbəttə hüquqi əsaslarını müəyyən edən "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu [9] qeyd edilməlidir.

İnvestisiya proseslərinin genişləndirilməsinə və intensivləşdirilməsinə yönəlmiş hüquqi, inzibati və iqtisadi fəaliyyətlərinin məcmusu kimi dövlətin investisiya siyasəti biznesə investisiyaların tənzimlənməsinin prioritetlərini müəyyən edir. Bu baxımdan, ilk növbədə biznesin iqtisadi sərbəstliyi və hüquqi mühitə çevik adaptasiyası qeyd edilməlidir. Əlverişli biznes fəaliyyəti və rəqabət mühitinin formalaşmasında "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu" [10] mühüm rola malikdir.

44 günlük Vətən Müharibəsindən sonra Azərbaycanın qazandığı parlaq qələbə həyatın bütün sahələrində olduğu kimi, iqtisadiyyatda da yeni yanaşmalara rəvac vermişdir. İşğaldan azad edlmiş Qarabağ və Şərqi Zəngəzurda biznesin canlandırılması üçün, həmin ərazilərin reinteqrasiyası prosesi dövlət tərəfindən sistemli surətdə dəstəklənir. Normativ-hüquqi bazanın formalaşması və inkişafında da Böyük Zəfərin təsiri özünü göstərməkdədir. Azad edilmiş ərazilərdə biznesin təşviqi, subyektlərin işgüzar fəallığı zamanı qarşılıaşdıqları risklərin idarə edilməsi sistemi də yeni şəraitə uyğunlaşdırılır.

Biznes mühitinin əlverişliyini şərtləndirən əsas amillərdən biri biznes subyektlərinin işinə müdaxilələrin sayı, onların əhatə dairəsi və əsaslandırma dərəcəsidir. Azərbaycanda biznesə əsassız müdaxilələrin aradan qaldırılması üzrə təcrübə iki onillikdən çox bir müddəti əhatə edir. Hazırda müvafiq istiqamətli işlərin hüquqi bazasının formalaşmasında 20 oktyabr 2015-ci il tarixli "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanunu [11] və 2 iyul 2013-cü il tarixli "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu [12] həlledici rol oynamaqdadır.

Biznesdə klaster təşəbbüsləri qarşılıqlı əlaqələrin keyfiyyətcə yeni, əksər hallarda dairəvi (qapalı) forması kimi aşağıdakı istiqamətlərdə müsbət dinamikanı şərtləndirə bilir: biznes subyektlərinin rəqabət qabiliyyətinin və ümumilikdə istehsal və xidmət fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi. Qismən qapalı texnoloji-iqtisadi əlaqələr məsrəfləri azaltmaqla, klasterə daxil olan subyektlərin bazar mövqeyini möhkəmləndirmək imkanlarını genişləndirir; klaster əsaslı biznesin inkişafı ərazi inkişafı ilə birgə sinergetik effekt yaradır; klaster təşəbbüslərinin əsasında yeni yanaşmalar durduğuna görə innovasiya biznesi üçün əlverişli şərait formalaşır.

Sadalanan istiqamətlərin biznesin stimullaşdırılmasına da yanaşmaların təkmilləşdirilməsini nəzərdə tutur.

Rəqəmsallaşma proseslərinin intensivləşməsi biznes konsepsiyasında yeni keyfiyyətlərin ehtiva olunması zərurəti yaradır. Hazırda rəqəmsal alət və texnologiyalardan istifadə etmədən rəqabət qabiliyyətinin zəruri səviyyəsinin təmin edilməsi, demək olar ki, mümkün deyildir. Mahiyyət etibarı ilə rəqəmsallaşma, ən yaxın perspektivdə biznes proseslərinin optimallaşdırılmasını nəzərdə tutur. Bu halda, biznes subyektlərinin həm öz aralarında, həm də müştərilərlə qarşılıqlı faydalı əlaqələrini genişləndirməklə, mövcud problemlərin addım-ad-

AUDİT 2024, 4 (46), səh. 144-151.
AUDIT 2024, 4 (46), pp. 144-151.
АУДИТ 2024, 4 (46), стр. 144-151.

dım məhdudiyyət şərtləri qismində araşdırılması alqoritmlərinin işlənib hazırlanması məsələləri aktuallaşır.

Biznesin tənzimlənməsində aktual sayılan məsələlərdən biri də innovasiyalı biznesin stimullaşdırılması mexanizminin təkmilləşdirilməsidir. Bu məqsədlə, başqa sözlə "səmərəli rəqəmsal transformasiyanın həyata keçirilməsi üçün dövlət siyasəti, bir qayda olaraq, dövlət və özəl sektorda elmi-tədqiqat, təkmilləşdirmə və innovasiyaların maliyyə dəstəyi üçün alətlər sistemindən, o cümlədən birbaşa qrantlar, subsidiyalar, vergi güzəştlərindən istifadəni nəzərdə tutur" [21].

Dövlət strukturları və biznes subyektləri arasında münasibətlərin səmərəliliyi sonuncuların inkişafında az rol oynamır. Stimullaşdırıcı təsirlərin nəticəyönümlüyü, həlledici dərəcədə biznesə dəstək infrastrukturunun vəziyyəti və inkişaf prioritetləri ilə bağlıdır.

Biznesə dəstək, həmin dəstəyin infrastruktur şəbəkəsinin vəziyyəti ilə bilavasitə bağlıdır. Azərbaycanda KOB subyektlərinin dəstəklənməsi infrastrukturu, tədricən davamlı inkişaf edən sistem əmələ gətirir. Biznesin inkişafına dair dövlət proqramlarının (layihələrinin) icrasında iştirak edən kommersiya və qeyri-kommersiya təşkilatları sistemi kimi biznes subyektlərinin dəstəklənməsi infrastrukturu, ölkədə biznes mühitinin əsas xarakteristikalarını şərtləndirən mühüm amildir. Həmin infrastruktura həmçinin biznesin institusional təminatında mühüm rol oynayan qurumlar (biznesin inkişafı agentlikləri, fondlar, innovasiya biznesinə innovasiya dəstəyi verən ixtisaslaşdırılmış qurumlar, texnoloji transfer mərkəzləri və s.) aid edilir. Əlbəttə, əksər hallarda biznesə dəstəyin aparıcı istiqamətləri kimi təhsil və informasiya-məsləhət xidmətlərinin infrastruktur təminatının rolu da diqqətdən kənarda qalmamalıdır.

Rəqəmsal mühitin üstünlüklərinin reallaşdırılması biznesin səmərəliliyini artırması üçün makroiqtisadi mühitin amillərinin təsirində baş verən dəyişikliklər nəzərə alınmalıdır. Həmin dəyişikliklərin dayanıqlı inkişaf konsepsiyasına və yaşıl biznes meyarlarına uyğunluğu məsələlərinin daha da aktuallaşacağı, yüksək ehtimalla gözləniləndir.

Yeri gəlmişkən bir məsələni xüsusi olaraq qeyd etməyi vacib hesab edirik. İnformasiya amilinin biznesin inkişafında rolu artmaqdadır. Bu proses informasiya təhlükəsizliyi problemlərinin daha da aktuallaşması ilə müşayiət olunur. Bu baxımdan, verilənlər bazalarınn zənginliyi, onların biliklər bazasının formalaşmasında rolu, informasiya münasibətlərinin inkişafı infrastrukturunun təşəkkülü vəziyyəti biznesin tənzimlənməsi sisteminin yaxşılaşdırılmasında artan rolu şübhəsizdir. Eyni zamanda unutmaq olmaz ki, ölkədə biznesin informasiya sistemi qloballaşma dövrünün güclənən tələblərinə, heç də həmişə cavab vermir. Belə ki, biznesin stimullaşdırılmasının (ümumilikdə, tənzimlənməsinin) hazırda fəaliyyətdə olan sisteminin xarakterizə edilməsi baxımından informasiya və qismən metodiki xarakterli çətinliklər, demək olar ki, azalmır.

Biznesin tənzimlənməsi sistemində informasiyanın assimmetriyasının azaldılması (onu tamamilə aradan qaldırmaq praktiki olaraq mümkün görünmür) biznes – dövlət, biznes-müştəri və biznes-biznes əlaqələrinin səmərəliliyinin yüksəldilməsinin mühüm amili hesab edilməlidir. Odur ki, biznesin qarşılaşdığı aktual problemlərin həlli üçün tənzimləmə sistemi müasir verilənlər və biliklər bazasına malik olmalıdır.

AUDİT 2024, 4 (46), səh. 144-151.
AUDIT 2024, 4 (46), pp. 144-151.
АУДИТ 2024, 4 (46), стр. 144-151.

## YEKUN

İşgüzar fəallığın tənzimlənməsi məsələlərinin aktuallığı biznes subyektlərinin problemlərinin aktuallıq dərəcəsi ilə şərtlənir. Hazırda dövlət tənzimlənməsi sisteminin biznesin problemlərinin səmərəli həllində mövcud imkanları və reallaşdırma istiqamətləri qismində aşağıdakıları göstərmək olar: dövlətin bazar araşdırmalarına fəal dəstəyi, biznesə dəstək layihələrinin (proqramlarının) icra prosesinin monitorinqi sisteminin təkmilləşdirilməsi, investisiya cəlbediciliyinin artırılmasına kreativ yanaşmaların təşviqi, biznes fəaliyyətinin dövlət tənzimlənməsinin birbaşa və dolayı üsullarının birgə tətbiqinin təkmilləşdirilməsi, rəqabət şəraitinin sağlamlaşdırılması üçün möhkəmləndirilən hüquqi bazanın işlək mexanizminin yaradılması, tənzimləmə sistemində biznesin klasterlərinin tələblərinin nəzərə alınması, rəqəmsal mühit imkanlarının daha fəal surətdə istifadə.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. https://malbusiness.com/biznes-dlya-klienta-ili-klient-dlya-biznesa

2. Свистунов В.М., Алешина А.А. Актуальные проблемы государственной поддержки малого и среднего предпринимательства // УПИРР. 2018. №4. URL: https:// cyberleninka.ru/article/n/aktualnye-problemy-gosudarstvennoy-podderzhki-malogo-i-srednego-predprinimatelstva

3. Р. Т. Кийосаки - Прежде чем начать свой бизнес/ Изд-во Попурри, 2021

4. Карцева Э.А. Методы государственного регулирования предпринимательской деятельности // Вестник науки. 2021. №12 (45). URL: https://cyberleninka.ru /article /n/ metody-gosudarstvennogo-regulirovaniya-predprinimatelskoy-deyatelnosti

5. Емельянова И. А. Государственное регулирование предпринимательской деятельности: соотношение прямых и косвенных методов // Вестник ПАГС. 2019. №3. URL: https://cyberleninka.ru/ article/n/gosudarstvennoe-regulirovanie-predprinimatel-skoy-deyatelnosti-sootnoshenie-pryamyh-i-kosvennyh-metodov

6. Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası". Bakı şəhəri, 22 iyul 2022-ci il №3378 https://813.ru/podderzhka/sotsial-pred-prinimatelstvo/kak-sozdat-uspeshnoe–sotsialnoe - predpriyatie

8. "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 2 dekabr 2022-ci il № 661-VIQ

9. "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 9 dekabr 2022-ci il № 691-VIQ

10. Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 15 mart 2016-cı il № 176-VQ

11.https://economy.gov.az/az/post/1105/isgaldan-azad-edilmis-erazilerde-fealiyyet-gosteren-sahibkarlara-daha-bir-guzest

12. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 20 oktyabr 2015-ci il № 1410-IVQ

AUDİT 2024, 4 (46), səh. 144-151.
AUDIT 2024, 4 (46), pp. 144-151.
АУДИТ 2024, 4 (46), стр. 144-151.

*Nigar Aghabala Gyulmalieva,*
*Ph.D. Student,*
*Azerbaijan Cooperation University,*
*E-mail: nigar.gulmaliyeva@gmail.com*
*© N.A.Gyulmalieva, 2024*

# CURRENT ISSUES OF IMPROVING THE SYSTEM OF STATE REGULATION OF BUSINESS

## A B S T R A C T

**The purpose of the study** is to assess the possibilities of increasing the role of the regulatory system in solving current problems of modern business.

**The methodology of the research** - observation, comparative analysis, synthesis, methods of scientific abstraction and generalization.

**The practical importance of the research** - substantiated scientific and theoretical provisions and the results obtained can be used in the process of developing and implementing measures to improve the system of state regulation of entrepreneurship.

**The results of the research** - the possibilities of improving the system of state regulation for a more effective solution of modern problems of the business environment are characterized and the directions for their implementation are determined.

**The originality and scientific novelty of the research** - the possibilities of improving the system of state regulation from the point of view of solving modern problems of the business environment and business are assessed, and the directions for their implementation are determined.

**Keywords:** business, state regulation, business environment, investments, opportunities, cluster.

**AUDİT 2024, 4 (46), səh. 144-151.**
**AUDIT 2024, 4 (46), pp. 144-151.**
**АУДИТ 2024, 4 (46), стр. 144-151.**

*Гюльмалиева Нигяр Агабала кызы,*
*докторант,*
*Азербайджанский Университет Кооперации,*
*E-mail: nigar.gulmaliyeva@gmail.com*
*© Гюльмалиева Н.А., 2024*

# АКТУАЛЬНЫЕ ВОПРОСЫ СОВЕРШЕНСТВОВАНИЯ СИСТЕМЫ ГОСУДАРСТВЕННОГО РЕГУЛИРОВАНИЯ БИЗНЕСА

## Р Е З Ю М Е

**Цель исследования** - оценить возможности повышения роли системы регулирования в решении актуальных проблем современного бизнеса.

**Методология исследования** – наблюдение, сравнительный анализ, синтез, методы научной абстракции и обобщения.

**Практичексая значимость исследования** - обоснованные научно-теоретические положения и полученные результаты могут быть использованы в процессе разработки и реализации мер по совершенствованию системы государственного регулирования предпринимательства.

**Результаты исследования** – охарактеризованы возможности совершенствования системы государственного регулирования для более эффективного решения современных проблем предпринимательской среды и определены направления их реализации.

**Оригинальность и научная новизна исследования** - оценены возможности совершенствования системы государственного регулирования с точки зрения решения современных проблем бизнес-среды и бизнеса, а также определены направления их реализации.

**Ключевые слова:** бизнес, государственное регулирование, бизнес-среда, инвестиции, возможности, кластер.

*Məqalə redaksiyaya daxil olmuşdur: 16.10.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 20.11.2024*
*Çapa qəbul olunmuşdur: 02.12.2024*

*Дата поступления статьи в редакцию: 16.10.2024*
*Отправлено на повторную обработку: 20.11.2024*
*Принято к печати: 02.12.2024*

*The date of the admission of the article to the editorial office: 16.10.2024*
*Send for reprocessing: 20.11.2024*
*Accepted for publication: 02.12.2024*